# VERİLƏN TAPŞIRIQLARIN İCRASINA TAM MƏSULİYYƏTLƏ YANAŞIR



Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rüfət Mehdiyev 1998-ci il martın 5-də Sabirabad rayonunun Ulacalı kəndində anadan olub. O, 2016-cı ilin aprelində hərbi xidmətə çağırılıb. Həmin ilin may ayından hərbi hissənin komendant bölüyündə baş atıcı vəzifəsində xidmətini davam etdirir. Xidmətə başladığı ilk günlərdən etibarən intizamı, məsuliyyəti və cəsarəti ilə komandirlərinin rəğbətini qazanan hərbi qulluqçu günün nizam qaydalarına ciddi riayət edərək, verilən tapşırıqların icrasına əzmlə yanaşır.

Əsgər R.Mehdiyev fiziki hazırlıq və atəş hazırlığı məşğələlərində böyük həvəslə iştirak edir. Keçirilən məşğələlərdə fərqlənərək yoldaşlarına nümunə olmağı bacarır. Təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyən hərbi qulluqçu silahın qorunması, təmizlənməsi qaydalarına riayət olunmasının vacibliyini nəzərə çatdırdı və vurğuladı ki, hər kəs öz silahını göz bəbəyi kimi qorumalıdır. Çünki döyüş meydanında hər birimizi qoruyacaq tək vasitə silahımızdır. Rüfət düşmən üzərində qələbə qazanacağımıza inandığını, bu günü bütün xalqımızın səbirsizliklə gözlədiyini bildirdi. Bunun üçün lazım gələrsə, canından keçməyə hər zaman hazır olduğunu da sözlərinə əlavə etdi.

**leytenant N.Ağayeva**

# YOL HƏRƏKƏTİ QAYDALARI, YOL HƏRƏKƏTİ İŞTİRAKÇILARININ ƏSAS VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

*(əvvəli ötən saylarımızda)*

## Dayanma və durma

**I** Nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa, nəqliyyat vasitələrinin yolun sağ tərəfində - yol çiynində, yol çiyni olmadıqda isə yolun hərəkət hissəsinin kənarında bir cərgədə dayanmasına və durmasına icazə verilir. Yanqoşqusu olmayan motosikletlər, mopedlər və velosipedlər yolun hərəkət hissəsinin kənarında iki cərgədə dayana və dura bilərlər.

**II** Yolun sol tərəfində dayanmağa və durmağa yaşayış məntəqələrində ortasından tramvay yolları keçməyən, hər istiqamət üçün bir hərəkət zolağı olan yollarda və birtərəfli hərəkət yollarında (icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinə birtərəfli hərəkət yollarının sol tərəfində dayanmağa yalnız yük götürmək və ya boşaltmaq üçün) icazə verilir. Yolun hərəkət hissəsinə bitişik səkinin kənarında durmağa yalnız minik avtomobillərinə, motosikletlərə, mopedlərə və velosipedlərə bu şərtlə icazə verilir ki, onlar piyadaların hərəkətinə mane olmasın.

**III** Yaşayış məntəqəsindən kənarda uzunmüddətli dincəlmə, gecələmə və istirahət üçün durmağa yalnız bu məqsədlə düzəldilmiş meydançalarda və ya yoldan kənarda icazə verilir.

**IV** Aşağıdakı yerlərdə:

1) tramvay yollarında, habelə tramvay yollarının bilavasitə yaxınlığında, əgər bu, tramvayın hərəkətinə maneə yaradarsa;

2) dəmiryol keçidlərində, tunellərdə, habelə estakadalarda, körpülərdə (əgər həmin istiqamətdə üçdən az hərəkət zolağı varsa) və onların altında;

3) nizamlama xətti (hərəkət hissəsinin kənarını göstərən xətdən başqa) ilə dayanmış nəqliyyat vasitəsi arasında məsafə 3 metrdən az olan yerlərdə;

4) piyada keçidlərində və onlara 5 metrdən az yaxınlıqda;

5) hərəkət hissəsində təhlükəli döngələrin və yolun uzununa profilinin qabarıq əyintili hissəsinin yaxınlığında - hər hansı bir istiqamətdə yolun görünmə sahəsi 100 metrdən az olduqda;

6) 1.1-1.4 nişanlama xətti, yaxud ayırıcı zolağı olan üçtərəfli yolayrıclarındakı yan keçidin qarşı tərəfində dayanma halları istisna olmaqla, hərəkət hissələrinin kəsişməsində və kəsişən hərəkət hissəsinin kənarından 5 metrdən az yaxınlıqda;

7) dayanacaq meydançasından, meydança olmadıqda isə marşrut nəqliyyat vasitələrinin və ya taksilərin dayanma yeri göstəricisinə (əgər bu, onların hərəkətinə mane olursa) 15 metrdən az yaxınlıqda;

8) nəqliyyat vasitəsi svetofor siqnallarının, yol nişanlarının qarşısını tutmaqla başqa sürücülərin bunları görməsinə maneə olduğu və ya başqa nəqliyyat vasitələrinin hərəkətini (girmə və ya çıxma) qeyri-mümkün etdiyi, yaxud piyadaların hərəkəti üçün maneə yaratdığı yerlərdə;

9) nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa - səkilərdə;

10) 3.27 yol nişanının təsir zonalarında dayanma qadağandır.

**V** Nəqliyyat vasitəsini duracağa qoyduqda sürücü mühərriki söndürməli, duracaq tormoz sistemini qoşmalı, təkərləri səkiyə və ya yolun qırağındakı başqa maneəyə tərəf çevirməli və qapıları kilidləməlidir. İcazə verilən maksimum kütləsi 3,5 tondan çox olan nəqliyyat vasitəsini yoxuşda və ya enişdə duracağa qoyduqda, nəqliyyat vasitəsinin öz-özünə hərəkət etməsinə yol verməmək üçün sürücü təkərlərdən heç olmasa birinin altına tıxac qoymalıdır.

**VI** Nəqliyyat vasitələrinin aşağıdakı yerlərdə durması qadağandır:

1) dayanacağın qadağan edildiyi yerlərdə;

2) yaşayış məntəqələrindən kənarda - yolların hərəkət hissəsində;

3) 5.1 (Avtomagistral) nişanı ilə işarələnmiş yerlərdə;

4) dəmiryol keçidlərinə 50 metrdən az yaxınlıqda;

5) girişin, habelə darvaza qarşısında;

6) 3.28 (Durmaq qadağandır) yol nişanının təsir zonalarında.

**VII** Dayanacağın qadağan edildiyi yerlərdə məcburi dayandıqda sürücü nəqliyyat vasitəsinin həmin yerlərdən aparılması üçün mümkün olan bütün tədbirləri görməlidir.

**VIII** Nəqliyyat vasitəsi qapılarının açılması yol hərəkətinin digər iştirakçıları üçün maneə yaradarsa, onları açmaq qadağandır.

**IX** Nəqliyyat vasitəsinin öz-özünə hərəkətini və ya sürücü olmadıqda ondan istifadəni istisna edən zəruri tədbirləri gördükdən sonra sürücü öz yerini tərk edə və ya nəqliyyat vasitəsini qoyub gedə bilər.

## Parklanma

**I** Nəqliyyat vasitələrinə xüsusi olaraq ayrılan, nişanlarla və ya nişanlama xətti ilə işarələnən yerlərdə parklanmağa icazə verilir.

**II** Yol hərəkətinin təhlükəsizliyini təmin etməyən yerlərdə və yolun hərəkət hissəsində nəqliyyat vasitələrinin parklanması qadağandır.

## Piyada keçidləri və ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanması

**I** Nizamlanan piyada keçidlərində svetoforun icazə siqnalı yandırıldıqda, sürücü imkan verməlidir ki, həmin istiqamətin hərəkət hissəsindəki piyadalar yolu keçməyi başa çatdırsınlar.

**II** Əgər nəqliyyat vasitəsi nizamlanmayan piyada keçidinin qarşısında dayanmışdırsa və ya sürətini azaltmışdırsa, qonşu zolaqlarda hərəkət edən digər nəqliyyat vasitələrinin sürücüləri yalnız dayanmış nəqliyyat vasitəsinin qarşısında piyadaların olmadığını yəqin etdikdən sonra hərəkəti davam etdirə bilərlər.

**III** Əgər piyada keçidindən o biri tərəfdə tıxac yaranıbsa və bu, sürücünü piyada keçidində dayanmağa məcbur edəcəksə, onun piyada keçidinə girməsi qadağandır.

**IV** Sürücü yaşayış məntəqələrində, piyada keçidlərindən kənarda ağ çəliklə işarə verən kor piyadalara yol verməlidir.

**V** Əgər ümumi istifadədə olan nəqliyyat vasitəsinə minmə və ya ondan düşmə yolun hərəkət hissəsində və ya orada yerləşən minik meydançasında aparılırsa, sürücü dayanacaqda duran ümumi istifadədə olan nəqliyyat vasitəsinə doğru gedən və ya ondan düşüb gedən sərnişinlərə yol verməlidir (qapılar tərəfdən).

**VI** "Uşaqlar" tanınma nişanı olan dayanmış nəqliyyat vasitəsinə yaxınlaşarkən, sürücü sürəti azaltmalı, lazım gəldikdə dayanmalı və uşaqlara yol verməlidir.

***Avtomobil və zirehli texnika şöbəsi***

## İDMAN

# KOMANDA ÜZRƏ QALİB 16075 SAYLI HƏRBİ HİSSƏ OLDU

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, fevralın 4-5-də Daxili Qoşunların Təlim Mərkəzində qoşunların zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi xidmət hərbi qulluqçuları arasında atıcılıq üzrə yarış keçirilib. Yarışda Daxili Qoşunların Baş İdarəsindən, Ali Hərbi Məktəbdən və hərbi hissələrdən 15 komanda tərkibində 89 nəfər hərbi qulluqçu iştirak edib.



**Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:**

**AKM**

**I yer** - leytenant Polad Orucov (DQBİ)
**II yer** - gizir Şövqi Ağayev (17072 saylı hərbi hissə)
**III yer** - gizir Emil İskəndərov (16073 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında)**

**PM-1**

**I yer** - kapitan Valeh İbrahimov (17072 saylı hərbi hissə)
**II yer** - baş çavuş Əlvan Hüseynov (17074 saylı hərbi hissə)
**III yer** - kapitan Vüsal Bayramov (17074 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında)**

**PM-4**

**I yer** - baş çavuş Xudaverdi Şükurulayev (99713 saylı hərbi hissə)
**II yer** - kiçik gizir Şamil Əhmədov (16075 saylı hərbi hissə)
**III yer** - kiçik gizir Şahin Əsədov (16075 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında)**

**PM-1**

**I yer** - gizir Səbinə Bədəlova (AHM)
**II yer** - gizir Kəmalə Abbasova (17072 saylı hərbi hissə)
**III yer** - kiçik çavuş Rada Petrova (16075 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında)**

**PM-5**

**I yer** - gizir Kəmalə Abbasova (17072 saylı hərbi hissə)
**II yer** - çavuş Fəridə Cabbarlı (16076 saylı hərbi hissə)
**III yer** - çavuş Şəidət İsayeva (17074 saylı hərbi hissə)

**Komanda üzrə:**

**I yer** - 16075 saylı hərbi hissə
**II yer** - 17074 saylı hərbi hissə
**III yer** - 17072 saylı hərbi hissə

## DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI YENƏ DƏ FƏRQLƏNMƏYİ BACARDI

Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, fevral ayının 15-dən 17-dək Daxili İşlər Nazirliyinin idman cəmiyyətində daxili işlər orqan və hissələri arasında Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda güc çoxnövçülüyü üzrə yarış keçirilib.

Daxili Qoşunların yığma komandası yarışda 11 nəfər idmançı və 1 nəfər nümayəndə heyəti ilə təmsil olunub.

Yarışda ağırlıq çəki daşları qaldırma üzrə şəxsi birincilikdə Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin hərbi qulluqçuları gizir Elnur Vəliyev 65 kq, əsgər Vəliməmməd Vəlizadə 70 kq, çavuş Elvin Dövlətov isə 75 kq çəki dərəcələrində 1-ci yeri tutublar.

99713 saylı hərbi hissənin hərbi qulluqçuları müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Anar Allahverdiyev 70 kq, çavuş Əli Bayramov 85 kq, 16075 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Elnur Abbasov isə 80 kq çəki dərəcələrində 2-ci yerdə qərarlaşıblar.



75 kq. çəki dərəcəsində mübarizə aparan 16075 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Təbriz Məmmədov 3-cü yerə layiq görülüb.

Qol güləşi üzrə keçirilən yarışın nəticələrinə gəldikdə, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Elnur Vəliyev 65 kq, 25033 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Faiq Abbasov +90 kq çəki dərəcələrində kürsünün zirvəsində yer alıblar. 67987 saylı hərbi hissənin hərbi qulluqçuları əsgər Oruc Mustafayev 80 kq, baş əsgər Ruslan Kübərov 90 kq çəki dərəcələrində 2-ci yeri tutublar.

99713 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Vəliməmməd Vəlizadə 70 kq. çəki dərəcəsində 3-cü yerdə qərarlaşıb.

Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yeri tutmuşdur.

Yarışda yüksək nəticələr göstərmiş hərbi qulluqçular hərbi hissə komandirləri tərəfindən mükafatlandırılıblar.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR

### Yüngül nəqliyyat vasitəsinin yeni versiyası təqdim olunub

"Polaris Defence" şirkəti MRZR yüngül nəqliyyat vasitəsinin yeni versiyasını təqdim edib. İki oturacaqlı və turbo dizel mühərrikinə malik yeni model "MRZR-D2" adını daşıyır. Avtomobilin çəkisi 454 kiloqramdır. Mobilliyi və yığcamlığı nəqliyyat vasitələrinin istənilən əraziyə daşınmasına imkan verir.



Maşının ağır yük helikopteriylə daşınması da mümkündür. "MRZR-D2" ən ekstremal şəraitlər və ərazi missiyaları üçün nəzərdə tutulur. Bu özəlliklərinə görə ötən il apreldə nümayiş olunan "MRZR-D4" modeli üçün ABŞ Dəniz Piyadaları (USMC), Xüsusi Təyinatlı Qüvvələri (USSOCOM) və Kanada Ordusu "Polaris Defence" şirkətinə sifariş verib.

Hazırda "MRZR" nəqliyyat vasitələri Azərbaycan da daxil olmaqla 20-dən artıq ölkənin istifadəsində yer alır.

### Çində fərqli dizaynlı yeni döyüş maşını yaradılıb

Çinin müdafiə sənayesi kompleksinin yeni yaratdığı piyadaların döyüş maşınının görüntüləri yayılıb.



Yeni texnikanın adı və xüsusiyyətləri barədə ətraflı məlumat verilməsə də görüntülərdən bəlli olur ki, maşın 40 mm-lik topla silahlandırılıb.

Bundan başqa, maşının mühərrik və transmissiyasının ayrıca platformada yer aldığı və korpusun ön sağ hissəsində olması ehtimal edilir.

Mütəxəssislərin sözlərinə görə, bu PDM yeni nəsil maşını hesab oluna bilər.

### Ukrayna "Kvitnik" korrektə olunan artilleriya mərmisinin istehsalını bərpa edib

Ukrayna "Kvitnik" korrektə olunan artilleriya mərmilərinin iki ildir dayanmış seriyalı istehsalını bərpa edib.

Məlumata əsasən, "Kvitnik" sursatı 152 mm və 155 mm kalibrlərdə istehsal edilib, mərminin sovet istehsalı olan "Akasiya", "Msta-S", Çex istehsalı olan "Dana" özüyeriyən, habelə D-20 yedək, NATO ordularında istifadə edilən "Panther", M-777 və digər 155 mm-lik haubitsalardan atıla bilir.



Sursat yarı aktiv özütuşlanan lazer başlıq vasitəsilə ilə hədəfə yönəlir. Mərmi açıq arxitekturaya malikdir. Həm NATO standartlı, həm də digər ölkələrin istehsalı olan lazer hədəf nöqtələyicilərlə istifadə oluna bilir.

Atışlar zamanı "Kvitnik" mərmisi rus "Krasnopol" idarə olunan mərmilərindən yaxşı nəticə göstərib. ""Kvitnik" xarici analoqlarından həm dəqiqlik, həm etibarlılıq, həm də qiymətinin Rusiya, Almaniya, ABŞ istehsalı olan anoloji mərmilərdən dəfələrlə ucuz olması ilə fərqlənir. Hazırda mərmi Ukrayna Silahlı Qüvvələri tərəfindən istifadə olunur. Eyni zamanda ixrac istiqamətində işlər aparılır.

## Allah rəhmət eləsin

17071 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Mahal Qasımova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 04 (495)
28 fevral 2017-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMININ 25-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA KEÇİRİLƏN ÜMUMXALQ YÜRÜŞDƏ İŞTİRAK EDİB

***XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüş keçirilib.***

***Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.***

Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar.

Ümumxalq yürüşün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı-25 il" və s. çağırışlar və şüarlar nümayiş etdirilirdi.

İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 25 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüş Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında



törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

*****

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələr xalqımızın tarixinə qanlı hərflərlə yazılıb. O gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhəri üzərinə hücum edib və onun dinc əhalisinə amansızcasına divan tutublar.

Xocalı soyqırımının qanlı statistikası belədir: Hücum zamanı şəhərdə olmuş 3 min nəfərdən 613-ü, o cümlədən, 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb, 197 nəfərin taleyi hələ də məlum deyildir. Səkkiz ailə tamamilə məhv edilib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.

Ermənilərin bu cəza tədbiri hərtərəfli planlaşdırılıb və yeganə bir məqsədlə törədilib - dinc sakinləri milli mənsubiyyət əlamətinə görə qismən və ya tamamilə məhv etmək. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifələrindən biridir. "Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Prezidentinin 2017-ci il 24 yanvar tarixli Sərəncamında deyilir: "Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır".

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, o cümlədən uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada keçirilən mitinqlər, bir sıra ölkələrdə anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Bu yürüş həm də dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən bu qələbə sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

*****

Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov fevralın 19-da ölkəmizdə rəsmi səfərdə olan Ukraynanın baş prokuroru Yuri Lutsenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Qonaqları salamlayan nazir son illər iki ölkə prezidentlərinin siyasi iradəsinə, dostluq münasibətlərinə və imzalanmış hökumətlərarası sənədlərə uyğun olaraq Azərbaycanla Ukrayna arasında bütün sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əlaqələrin inkişafını, cinayətkarlığa, xüsusən mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə qarşı hər iki dövlətin güc strukturlarının səmərəli əməkdaşlıq etdiyini məmnunluqla vurğulayıb. O, bu işdəki roluna, eyni zamanda, Ukrayna ərazisində azərbaycanlılara qarşı törədilmiş bir sıra cinayətlərin istintaqını şəxsən nəzarətə götürdüyünə görə baş prokuror Yuri Lutsenkoya təşəkkürünü bildirib.

Daha sonra cənab Ramil Usubov müstəqilliyin ilk illərində respublikamızdakı gərgin ictimai-siyasi vəziyyət, ağır kriminogen durum barədə məlumat verib. Azərbaycanın bu fəlakətdən xalqın tələbi ilə ali hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti və rəhbərliyi ilə həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində xilas olduğunu xatırladan nazir 1995-ci ilin sonlarından başlayaraq ölkəmizdə sabitliyin bərqərar olduğunu, əməliyyat şəraitinin tam nəzarətə götürüldüyünü diqqətə çatdırıb. Məhz görülmüş belə məqsədyönlü işlərin, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu hüquq mühafizə siyasətinin məntiqi nəticəsi olaraq bu gün ölkəmizin cinayətlərin sayının azlığına görə MDB və Şərqi Avropada öncül yerlərdən birini tutduğu xüsusi qeyd olunub.

Ukrayna Respublikasının baş prokuroru Yuri Lutsenko səmimi qəbula, yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə minnətdarlığını bildirərək Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.

Qonaq, həmçinin iki ölkənin hüquq-mühafizə orqanları arasında qarşılıqlı faydalı və səmərəli əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. O, bu məqsədlə öz səylərini əsirgəməyəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də geniş şəkildə müzakirə olunub.

Görüşdə Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aleksandr Mişenko iştirak edib.

*****

***Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Berlin şəhərində keçirilən 20-ci Avropa Polis Konqresində iştirak etmək üçün fevralın 20-dən Almaniya Federativ Respublikasında işgüzar səfərdə olub.***

Fevralın 21-də öz işinə başlayan tədbiri giriş sözü ilə Almaniya Federativ Respublikasının Daxili İşlər Naziri Tomas de Mezyer və Avropa İttifaqının miqrasiya, daxili işlər və vətəndaşlıq məsələləri üzrə komissarı Dimitris Avramopulos açıblar. Builki mövzusu "Sərhədsiz Avropa? Azadlıq, mobillik və təhlükəsizlik" olan tədbirin konfrans çərçivəsində keçirilən panellərində terrorçuluq, mütəşəkkil cinayətkarlıq, sərhəd təhlükəsizliyi, kriminalistika, polisin uğurlu fəaliyyəti üçün rəqəmsal platformalar, ictimai yerlərin müşahidəsi kimi məsələlərin müzakirəsi nəzərdə tutulub.

Hər il keçirilən, daxili təhlükəsizlik məsələlərində Avropanın aparıcı konfransı hesab olunan bu mötəbər beynəlxalq forumda dünyanın bir çox dövlətlərinin daxili işlər nazirləri, Avropa İttifaqının məsul nümayəndələri, polis və sərhəd təhlükəsizliyi qurumlarının rəhbərləri, təhlükəsizlik sahəsində fəaliyyət göstərən özəl şirkətlərin nümayəndələri iştirak edirlər.

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ XOCALI FACİƏSİ QURBANLARININ ANIM MƏRASİMİ KEÇİRİLİB

***Fevral ayının 24-də Daxili Qoşunların Baş İdarəsində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov iştirak edib.***

Tarixdə misli görünməmiş faciə olan Xocalı hadisələri haqqında məlumat verən məruzəçi ötən əsrlərdən etibarən erməni daşnakları tərəfindən soydaşlarımızın xüsusi amansızlıqla qətlə yetirildiyini və bu vandalizmə dünya ictimaiyyətinin hələ də göz yumduğunu diqqətə çatdırdı. Bildirdi ki, baş vermiş məlum hadisələr xalqımızın qan yaddaşında dərin izlər buraxmış, neçə illər keçməsinə baxmayaraq, soyqırımı günahkarları hələ də cəzasız qalmışdır.

Erməni separatçılarının Azərbaycan xalqına qarşı törətdikləri silsilə soyqırım aktlarının, onların məkrli siyasətinin dünya, eləcə də region dövlətləri tərəfindən dəstəkləndiyini təəssüf hissi ilə qeyd edən V.Abışov beynəlxalq aləmdə hələ də ikili standartların hökm sürdüyünü dedi.

Bu gün "Xocalıya ədalət" kampaniyasının dövlətimizin xarici siyasətinin ən mühüm istiqamətlərindən biri olduğunu diqqətinə çatdıran məruzəçi vurğuladı ki, erməni qəsbkarları tərəfindən törədilmiş misli görünməmiş vəhşiliklərin, xalqımızın başına gətirilmiş amansızlıqların təbliğ edilməsi hər bir azərbaycanlının vətəndaşlıq borcudur.



Anım tədbirində, həmçinin Xocalı faciəsinin franqmentlərini özündə əks etdirən vüdeosüjet də nümayiş etdirilib.

Qeyd edək ki, Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda keçirilən ümumxalq yürüşdə Daxili Qoşunların komandanlığı da iştirak edib. Yürüşdə faciə qurbanlarının xatirəsi ehtiramla yad edilib.

**Mətbuat xidməti**

## XİDMƏTİ VƏZİFƏLƏRİNİ BAŞA VURAN JANDARM ZABİTLƏRİ YOLA SALINIB



***Fevral ayının 24-də Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan daha bir müəllim heyətinin fəaliyyət müddəti başa çatıb. Bu münasibətlə Daxili Qoşunların Baş İdarəsində yolasalma mərasimi keçirilib.***

Türkiyəli zabitləri səmimi salamlayan general-mayor Ş.Xəlilov xidməti ezamiyyətini başa vurmuş Daxili Qoşunların Ali Hərbi Məktəbində çalışan polkovnik Hasan Basri Uçarın rəhbərliyi ilə 2 nəfərdən ibarət müəllim heyətinə göstərdikləri köməkliyə görə minnətdarlığını bildirib.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol"un artıq 20-ci ildönümü ərəfəsində olduğunu xatırladan general-mayor Ş.Xəlilov, iki qurum arasındakı sıx "əsgəri qardaşlıq" münasibətlərinin bu gün də yüksələn templə inkişaf etdiyini vurğulayıb. Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının Daxili Qoşunlara təlim-tədris sahəsində göstərdiyi köməkliyin bunun bariz nümunəsi olduğunu nəzərə çatdırıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə iki qurum arasında mövcud olan qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin bundan sonra da inkişaf etdirilməsi üçün addımların atılmasının vacibliyi bir daha vurğulanıb.

Tədbirdə həmçinin xidməti vəzifələrə yeni təyin olunan jandarm zabitləri-polkovnik Metin Birliktaş və mayor Özgün Uçar da iştirak ediblər. Onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Tədbirin sonunda türkiyəli müəllim heyəti Daxili Qoşunların Komandanın müvafiq əmri ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Respublikası Jandarm Baş Komandanlığı arasında hərbi əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində, eləcə də Daxili Qoşunlarda təlim-tədris işinin təkmilləşdirilməsində yüksək peşəkarlıq və iş bacarığı nümayiş etdirdiyinə görə "Fərman"la mükafatlandırılıb və xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## HƏRBİ HİSSƏNİN YARANMASININ 28-ci İLDÖNÜMÜ QEYD EDİLİB

***Fevralın 23-də Daxili Qoşunların şərəfli döyüş yolu keçmiş 16075 saylı hərbi hissəsinin yaranmasının 28-ci ildönümü qeyd olunub.***

Mərasimdə Daxili Qoşunların Veteranlar Şurasının üzvləri də iştirak ediblər.

Tədbir başlamazdan əvvəl mərasim iştirakçıları hərbi hissənin ərazisində torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə tər gül dəstələri qoyublar. Ardınca Ümummilli Lider Heydər Əliyevin, eləcə də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiətilə Dövlət Himni ifa olunub.

Hərbi hissə komandiri mayor Emil Rüstəmov mərasim iştirakçılarına hərbi hissənin ötən illərdə keçdiyi döyüş yolu haqqında məlumat verib.

Qeyd edilib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə hərbi hissənin şəxsi heyəti xüsusi şücaət və fədakarlıq nümunələri göstərmişdir. Horadiz sərhədyanı yaşayış məntəqəsinin və 12-dən artıq kəndin azad olunması ilə nəticələnən döyüşlərdə 16 nəfər şəhid olmuş, 3 nəfər isə itkin düşmüşdür. Daxili Qoşunların ilk şəhidi çavuş Hətəmxan Babayev və Daxili Qoşunların Milli Qəhrəmanı əsgər Ruslan Muradov da məhz bu hərbi hissədə xidmət etmişlər.

Hərbi hissə komandiri döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün yaradılan hərtərəfli şəraitə, həmçinin şəxsi heyətə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, həmçinin Daxili İşlər Nazir general-polkovnik Ramil Usubova dərin minnətdarlığını bildirib.

Sonra ildönümü münasibətilə şəxsi heyətə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik məktubu çatdırılıb.

Təbrikdə hərbi hissənin digər hüquq-mühafizə orqanları ilə birgə Sumqayıt şəhərində cinayətkarlıqla mübarizədə, ictimai təhlükəsizliyin təmin olunmasında və ictimai qaydaların qorunmasında yüksək fəallıq göstərdiyi əks olunmuşdur. Ali Baş Komandanın Daxili Qoşunlara olan diqqət və qayğısının önə çəkildiyi təbrik məktubunda xüsusi olaraq vurğulanmışdır ki, göstərilən bu etimadın daima qorunub saxlanılması, döyüş hazırlığının daha da yüksəldilməsi şəxsi heyətin qarşısında duran ən mühüm vəzifələrdəndir.

İldönümü münasibətilə xidmətdə fərqlənmiş, yüksək peşə hazırlığı, nümunəvi intizamı nümayiş etdirən hərbi qulluqçular mükafatlandırılıblar.

Mərasimində çıxış edən qonaqlar ildönümü ilə əlaqədar şəxsi heyətə öz təbriklərini çatdırıblar.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## MƏİŞƏT OTAĞI BÜTÜN LAZIMİ AVADANLIQLARLA TƏMİN OLUNUB

***Ötən sayımızda 17071 saylı hərbi hissənin bölmələrinin həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti haqqında məlumat vermişdik. Bu sayımızda isə bir qədər fərqli, lakin maraqlı məqamlardan söhbət açmaq istəyirik. Nəzərdə tutduğumuz mövzu şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinin həyata keçirilməsidir.***

Bölmələr gün ərzində funksional vəzifələrinin icrası ilə yanaşı, həm də aidiyyəti üzrə təyin olunmuş məşğələlərdə iştirak edirlər. Bütün bunlara ciddi nəzarət edən hərbi hissə komandanlığı şəxsi heyətin asudə vaxtının səmərəli təşkilini diqqət mərkəzində saxlayır. Bu yazıda əsasən müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların asudə vaxtlarının təşkilini önə çəkmək istəyirəm. Onlar asudə vaxtlarında daha çox şəxsi gigiyena tələbatlarına fikir verirlər. Belə ki, geyimlərinin səliqə-sahmanına, ütülü olmasına, boyunağının təmizliyinə, dırnaqlarının, üzlərinin və saçlarının tələblərə əsasən olmasına diqqət yetirirlər. Bunun üçün bölmələrdə məişət otaqları nəzərdə tutulub. Hər bir əsgər günün müəyyən edilmiş vaxtlarında məişət otağından sərbəst şəkildə istifadə edə bilər. Yeri gəlmişkən onu da qeyd edək ki, məişət otağı bütün lazımi mebel və texniki avadanlıqlarla təmin olunub. Bu işdə bacarıqlı əsgərlər var ki, onlar yoldaşlarına yaxından köməklik göstərirlər. Məsələn, təminat bölüyündə 2016-cı ilin iyul ayından xidmət edən əsgər Nicat Məmmədli və 2016-cı ilin oktyabr ayından xidmət edən əsgər Asəm Əsgərov yoldaşlarının saçlarının qaydaya salınmasında köməklik edirlər. Sözügedən əsgərlər bölükdə nizam-intizamlı, ətrafdakılara nümunə olmaqlarıyla yanaşı, bərbərlik istedadına da malikdirlər. Əsgərlər Elxan Məmmədov və Səhrah Rüstəmov da yoldaşları kimi asudə vaxtdan səmərəli istifadə edərək öz hərbi geyimlərini ütləyir, səliqəyə salırlar. Bir sözlə, əsgərlərin həm asudə vaxtlarının səmərəli təşkili nəzarətdə saxlanılır, həm də hərbi hissədə şəxsi gigiyena tqaydalarına əməl olunması üçün hərtərəfli şərait mövcuddur.





**baş leytenant T.Əlizadə**

## DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİM UĞURLA KEÇİRİLİB

***Müdafiə Nazirliyinin "Goran" Təlim Mərkəzində Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin artilleriya divizionunun, 25033 və 17074 saylı hərbi hissələrin artilleriya və minaatan bölmələrinin hazırlığı yoxlanılıb və döyüş atışlı taktiki təlim keçirilib.***







İlk olaraq təlimin keçirilməsinin məqsədi iştirakçılara çatdırılıb, hərbi qulluqçularla təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ keçirilib.

Təlimin ilk günü şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib.

Hərbi hissələrin artilleriya və minaatan bölmələrinin hərbi qulluqçuları ilə taktiki hazırlıq üzrə məşğələləri keçirildikdən sonra onlardan məqbullar qəbul olunub.

Təlimin növbəti günlərində isə hərbi qulluqçularla atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqların icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin komandir heyəti ilə ərazinin kəşfi, qiymətləndirilməsi, artilleriya atış və atəşinin idarə olunması qaydaları, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə etməklə hədəfləri müəyyən edib, atışların keçirilməsi qaydası, atəşin bir nöqtədən idarə olunması, döyüş atışlı taktiki təlimin təşkili, keçirilməsi və qiymətləndirilməsi üzrə məşğələlər keçirilib. Şəxsi heyətin praktiki fəaliyyəti məşq etdirilib.

Bundan başqa, artilleriya və minaatan bölmələrinin şəxsi heyəti ilə artilleriya divizionunun komandiri, batareya komandirləri, batareyanın baş zabitləri, heyət komandirləri, rabitəçi və kəşfiyyat və idarəetmə taqımlarının hərbi qulluqçuları ilə döyüş tapşırıqlarının icrası zamanı bloknotlardan istifadə edilməsi və qeydiyyatların aparılması üzrə əlavə məşğələlər keçirilib. Döyüş atışlı taktiki təlim planına əsasən praktiki döyüş atışları yerinə yetirilməklə təlim icra olunub.

Təlimlərin keçirilməsi zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı da ciddi nəzarətdə saxlanılıb.

Təlimin sonunda artilleriya və minaatan bölmələrin hazırlığının yoxlanılmasının və keçirilmiş döyüş atışlı taktiki təlimin nəticələri ilə əlaqədar aidiyyəti üzrə şəxslərlə yekun keçirilərək, müvafiq tapşırıq və tövsiyələr verilib.

Ümumilikdə, təlimlər uğurla başa çatıb. Praktiki atışlar zamanı təhlükəsizlik qaydalarına ciddi şəkildə riayət olunub.Təlimlərdə yüksək nəticələr əldə edən hərbi qulluqçular hərbi hissələrin komandirlərinin əmrləri ilə mükafatlandırılıblar.

**leytenant X.Hacızadə**

## YAXŞILARIN YAXŞISI OLMAQ HƏDƏFİ

***Üzərimizə düşən vəzifələrin məsuliyyətini dərk edir və daim bu istiqamətdə əzmkarlıq nümayiş etdiririk***



16076 saylı hərbi hissənin mühafizə bölüyü 2016-cı ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinci yerə layiq görülərək, hərbi hissə komandiri tərəfindən kubokla təltif olunub. Bölüyün əsas vəzifəsi dövlət əhəmiyyətli obyektlərin mühafizəsini təşkil etməkdən ibarətdir.

Xidmətdə fərqlənərək birincilik qazanan bölüyün komandiri leytenant Orxan Mirzəyevlə söhbət etdik. Mühafizə xidmətinin spesifikliyini nəzərimizə çatdıran bölük komandiri birinciliyi qazanmaq uğrunda hərbi qulluqçulara şəxsi nümunə göstərməyi və qarşılıqlı münasibətlərin məhz nizamnamələr çərçivəsində tənzimlənməsini önəmli faktorlar kimi qeyd etdi. Bölüyün döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, daxili qayda-qanuna riayət edilməsinə, bölüyün silahlarının, xüsusi vasitələrin və digər əmlakların vəziyyətinə, bölük təsərrüfatının aparılmasına cavabdehlik daşıdığını bildirən leytenant O.Mirzəyev fəaliyyətini rəhbər sənədlərin tələblərinə əsasən təşkil edir. Həftəlik məşğələ cədvəlinə uyğun olaraq keçirilən məşğələlərdə əsas diqqət yetirilən məqamlardan biri də xidmətin xüsusiyyətlərinə uyğun nəzəri biliklərin verilməsidir. Hərbi qulluqçuların fiziki və atəş hazırlığı məşğələlərində normativ sənədlərin, təhlükəsizlik qaydalarının tələblərinə diqqət yetirilir.

Qarovul xidmətinə cəlb olunan hərbçilərin seçilməsinə bölük komandiri tərəfindən şəxsən nəzarət edilir. Bu zaman onların hazırlıqları, mənəvi-psixoloji durumu və sağlamlıqlarına fikir verilir. Qarovulun şəxsi heyəti ilə xidmətə getməzdən bir gün əvvəl Daxili Qoşunların taktikasından əlavə məşğələlər təşkil olunur. Bölük komandiri hərbi hissənin tərbiyə bölməsində psixoloq leytenant Zərifə Rzaquliyevanın xidmət öncəsi şəxsi heyətlə apardığı söhbətlərin xidmətin keyfiyyətli təşkilinə müsbət təsir edən amillərdən olduğunu da vurğuladı.

Qarovul xidmətinin aparılmasına hazırlıq məqsədilə hərbi qulluqçularla 45 dəqiqə ərzində 6 təlim nöqtəsində təlimat məşğələsi keçirilir.

Təlimat məşğələsindən sonra qarovulun şəxsi heyətinin sursatla təmin olunması və xidmət yerinə göndərilməsi həyata keçirilir.

Şəxsi heyətlə yaxından maraqlanan, onların qayğısına qalan leytenant O.Mirzəyev tabeliyində olan hərbi qulluqçuların istirahətinin və asudə vaxtlarının səmərəli təmin olunduğunu da nəzərimizə çatdırdı: "Düşünürəm ki, hər birimiz üzərimizə düşən vəzifələrin məsuliyyətini dərk etməli və daim bu istiqamətdə əzmkarlıq göstərməliyik. Ancaq bu halda xidməti nailiyyətdən danışa bilərik. İl ərzində xidmətdə nümayiş etdirdiyimiz dözümlülüyü növbəti illərdə də təkrarlayacağımıza, nailiyyətlərimizi bundan sonra da qoruyub saxlamaq üçün əlimizdən gələni edəcəyimizə söz veririk".

**leytenant N.Ağayeva**



*Şəhidlərimiz*

## MƏRD, QORXUBİLMƏZ VƏ TƏLƏBKAR BİR ZABİT İDİ...

XX əsrin sonlarında yenidən baş qaldıran erməni daşnaklarının Azərbaycan ərazisində Qarabağ müharibəsinə başlayarkən törətdikləri ilk faciə Qazax rayonunun Bağanis Ayrım kəndində baş verdi...

Qazax rayonunun Əskipara inzibati ərazi vahidinə daxil olan Bağanis Ayrım azərbaycanlıların yaşadığı kəndlərdən biri idi. Keçmiş adı Seyid Ayrım olan bu kənd Coğaz çayının sahilində salınmışdır. Yaşayış məntəqəsi ayrımların seyidli qoluna mənsub ailələr tərəfindən keçmişdə mövcud olmuş Bağanis kəndi yaxınlığında salındığı üçün belə adlandırılmışdır. 600 nəfər əhalisi olan Bağanis Ayrım kəndi rayonun Aşağı Əskipara, Quşçu Ayrım, Xeyrimli və Məzəm kəndləri ilə həmsərhəddir. Əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olan kəndin əsrarəngiz təbiəti, saysız-hesabsız bulaqları vardı.

Strateji baxımdan olduqca əlverişli coğrafi mövqedə yerləşən bu yaşayış məntəqəsi İcevan-Noyemberyan avtomobil yolu üzərində yerləşdiyindən, başqa sözlə desək, Ermənistanla Gürcüstanı birləşdirən magistral bu yerlərdən keçdiyi üçün düşmən gələcəkdə daha rahat hərəkət etmək məqsədilə bu kəndin işğalını xüsusi plan əsasında həyata keçirmişdir.

Belə ki, hələ 1990-cı il martın 4-də Noyemberyan sakini, erməni millətçisi Ohanes Davidoviç Bəyləryanın başçılıq etdiyi "Xaç gəzdirənlər" terror qrupunun üzvləri tərəfindən Bağanis Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 2 nəfər yaralanmış və 13 yaşayış evi partladılmışdır (cinayət işi 11709).

Martın 23-dən 24-nə keçən gecə isə qabaqcadan təşkil edilən plan əsasında hücuma məruz qalmış Bağanis Ayrım kəndi martın 24-ü səhər saatlarında ermənilər tərəfindən işğal olundu. Beləliklə, Bağanis Ayrım erməni vandallarının işğal etdiyi ilk Azərbaycan kəndi kimi tariximizə yazılmış oldu.

İşğal zamanı kəndin əli silahsız, günahsız əhalisinə qarşı tarixdə görünməmiş divan tutulub. 10 nəfər dünyasını dəyişib, 15 nəfərdən çox insan yaralanıb. 100-dən çox evi olan kənd talan olunub, əhalinin kənddən çıxara bilmədiyi ev əşyaları və mal-qara ermənilər tərəfindən mənimsənilib. Ermənilərin bu vəhşiliyi barədə Əlisahib Ərtoğrul müəllifi olduğu və 2009-cu ildə Bakıda nəşr olunan "Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası (Bədii, tarixi publisistika)" kitabında yazır: **"24 mart 1990-cı il: Ohanes Bəyləryanın başçılıq etdiyi "Xaç gəzdirənlər" daşnak terror qrupu Qazax rayonunun Ermənistan SSR ilə həmsərhəd kəndi-Bağanis-Ayrıma basqın edir. 600 nəfər əhalisi olan 100 evlik kənd yerlə-yeksan edilir. 1913-cü il təvəllüdlü kənd sakini Əliyev Dadaş Bayram oğlu, həyat yoldaşı, 1921-ci il təvəllüdlü Bəkizar Qulu qızı, qızları - 1956-cı il təvəllüdlü Havvaxanım, 1963-cü il təvəllüdlü Aliyə və iki aylıq nəvəsi Hafizi ailənin ikimərtəbəli evində diri-diri yandırırlar. Ələ diri keçirdikləri kənd sakini, 1941-ci il təvəllüdlü Məmmədov Alməmməd Gülməmməd oğlunun əl-ayağını sarıyaraq, həyətindəcə alovlanan ot tayasında yandırırlar. Qaçıb canını qurtarmağa çalışan Ənvər Əsgərovu və Məcid Əhmədovu yerlərindəcə güllələyirlər. Polis baş leytenantı Zirəddin Əliyev isə yaralanır".**



LİPATOV ALEKSANDR VLADİMİROVİÇ

SSRİ DİN-in Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən, o zamankı 5477 saylı milis taborunun (indiki 17072 saylı hərbi hissə - A.Ə.) şəxsi heyəti Qazax rayonunun milis əməkdaşları ilə birgə erməni daşnaklarının hücumunun dəf edilməsində xüsusi ilə fərqlənmişlər. Azğınlaşmış erməni quldurları təkcə dinc sakinləri deyil, asayiş keşikçilərini də hədəf alırdılar. Bu barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin gündəlik rəsmi məlumatları əsasında hazırlanmış və 2005-ci ildə Bakıda, "Vətən" nəşriyyatında işıq üzü görən "Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər)" adlı kitabda qeyd edilmişdir.

Belə ki, 19 avqust 1990-cı il tarixdə Qazax rayonunun Yuxarı Əskipara marşrutu ilə hərəkət edən avtobus erməni yaraqlıları tərəfindən atəşə tutulmuş, nəticədə milis nəfərlərindən Şamoy Çobanov həlak olmuş, Çingiz Məmmədov və daha 3 sərnişin ağır yaralanmışdır (Bu barədə "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyi tərəfindən hazırlanmış və Azərbaycanın Milli Qəhrəmanlarının həyat və döyüş yolundan bəhs edən "Ölümə Qənşər" bədi-sənədli filmində Qazax rayonunun Ermənistanla həmsərhəd olan kəndlərinin dinc sakinlərinə qarşı erməni daşnaklarının törətdiyi vəhşiliklər və Ş.Çobanovun göstərdiyi qəhrəmanlıqlar geniş işıqlandırılmışdır - A.Ə). Kitabda həmçinin avqustun 20-də erməni yaraqlıları tərəfindən Qazax rayonunun Bağanis Ayrım və Aşağı Əskipara kəndlərinə silahlı basqın edilməsi nəticəsində 5477 saylı hərbi hissənin qərargah rəisinin müavini kapitan Aleksandr Vladimiroviç Lipatovun qətlə yetirilməsi, 4 hərbçinin və 4 yerli sakinin yaralanması qeyd edilmişdir.

Məlumat üçün bildirək ki, kapitan A.Lipatovun adı Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısında 76-cı sıra nömrəsi ilə qeydə alınmış, həmçinin 20 avqust 1990-cı il tarixdə 5477 saylı hərbi hissənin zabiti kimi Qazax rayonunda şəhid olması göstərilmişdir.

A.Lipatovla o dövrdə "praporşik" kimi birgə xidmət etmiş döyüşçü yoldaşı Natiq Alməmmədov (hazırda Daxili Qoşunların veteranı, ehtiyatda olan baş leytenant - A.Ə) onu qəhrəman döyüşçü, eyni zamanda əsl hərbçi kimi xatırladığını deyir:

**"Mən əvvəllər SSRİ DİN-in Daxili Qoşunlarının 6500 saylı hərbi hissəsində xidmət edirdim. Mənfur qonşularımızın torpaqlarımıza ilk təcavüzü başlayanda, bizi Gəncə şəhərində yerləşən 5477 saylı hərbi hissəyə ezam etdilər. Oradan da Qazax rayonunun kəndlərinin müdafiəsi üzrə xidmətə cəlb edildik. Kapitan A.Lipatovu da ilk dəfə hələ Gəncədə olarkən tanımışdım. Sonralar erməni quldurlarına qarşı aparılan hərbi əməliyyatlarda da birgə xidmət etmişdik. Artıq onu bir il olardı ki, tanıyırdım. Qərargah rəisinin müavini vəzifəsində xidmət edən Aleksandr işinə məsuliyyətlə yanaşan, eyni zamanda da mərd, qorxubilməz və tələbkar bir zabit idi. Bağanis Ayrıma edilən ikinci hücum zamanı daşnaklar Aleksandrı kəndin mərkəzindəki klubun yaxınlığında ağır yaraladılar. O, baş nahiyəsindən aldığı yaradan qəhrəmancasına şəhid oldu".**



Onu da qeyd edək ki, erməni daşnaklarının torpaqlarımıza basqınının qarşısının alınması zamanı şəhid olmuş SSRİ DİN-in Daxili Qoşunların zabiti, kapitan A.Lipatovun cənazəsi hərbi hissədə təşkil edilmiş vida mərasimindən sonra doğma Vətəni Rusiyaya aparılaraq, orada dəfn olunmuşdur. Bundan əlavə, cəsur zabitin fotoşəkli Qazax rayon polis şöbəsindəki bu rayon uğrunda şəhid olmuş cəsur Vətən övladlarına həsr olunmuş fotostenddə asılmışdır.

Beləliklə də avqustun 20-də Bağanis Ayrım kəndi daşnak qüvvələri tərəfindən işğal edildi. İşğal nəticəsində dördillik ibtidai məktəb, feldşer-mama məntəqəsi, klub və 10373 nüsxə kitab fondu olan kitabxana yandırılıb məhv edilmişdir.

Bağanis Ayrım faciəsi haqqında geniş məlumatlar Millət vəkili Qənirə Paşayeva və Akif Aşırlının müəllifi olduqları **"Erməni təcavüzünün qurbanları-Bağanis Ayrım"**, həmçinin Elçin İsmayılın **"Bu, əsl faciə idi"** adlı kitablarında qeyd edilmişdir.

1990-cı ilin martında erməni vandalları tərəfindən Bağanıs Ayrımda törədilən qətliam 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda təkrar edildi.

İnsanlığa sığmayan vəhşiliyin cəzasını almayan erməni quldurları bu qanlı hadisədən sonra Qazax rayonunun Xeyrimli, Aşağı Əskipara, Sofulu, Barxudarlı, Qızıl Hacılı, Yuxarı Əskipara kəndlərini də işğal edərək yandırmış, talan etmiş və dağıtmışlar. Bu gün rayonun 7 kəndi (ümumilikdə, 4439 hektar ərazi) hələ də terrorçuluğu dövlət səviyyəsində həyata keçirən Ermənistanın işğalı altındadır. İşğal olunmuş ərazilərdən 6.500 nəfər məcburən köçkün düşüb. Bağanis Ayrım kəndindən məcburi köçkün həyatı yaşayan insanlar Qazax rayonunun müxtəlif yerlərində məskunlaşıblar.

Məlumat üçün bildirək ki, doğma dədə-baba torpaqlarının müdafiəsi uğrunda erməni faşistlərinə qarşı aparılan döyüşlərdə Qazax rayonunun 263 nəfər sakini şəhidlik zirvəsinə ucalmış, yüzlərlə dinc əhali və döyüşçü yaralanmış, əlil və şikəst olmuşdur. Bu müqəddəs torpağın igidlərindən 5 nəfəri "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

**kapitan A.Əhmədov**

***İctimaiyyətlə sıx əlaqədə olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ölkədə keçirilən bir çox xeyriyyə tədbirlərində yaxından iştirak edir. Qoşunların bir sıra rayon icra hakimiyyəti orqanları, eləcə də qeyri-hökumət təşkilatları ilə müxtəlif layihələrdəki fəaliyyəti ictimaiyyət tərəfindən də təqdirəlayiq hal kimi qiymətləndirilir. Şəxsi heyətin Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən "Talassemiyasız həyat naminə" layihədəki iştirakı da bu qəbildəndir.***

## HƏRBİ QULLUQÇULARIMIZ "TALASSEMİYASIZ HƏYAT NAMİNƏ" LAYİHƏSİNDƏ İŞTİRAK EDİB

*Qan verməyə bir saat ayrılan vaxt bir həyata bərabərdir...*

Bu layihə çərçivəsində Azərbaycan Talassemiya Federasiyası ölkəmizin paytaxtı və regionlarında qan donorluğunun təşviqi və təmənnasız qanvermə aksiyalarının təşkili ilə məşğul olaraq, talassemiya pasiyentlərinin lazımi miqdarda qan ilə təmin edilməsi istiqamətində Mərkəzi Qan Bankına köməklik göstərir.





Artıq neçə ildir ki, Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu talassemiya xəstəliyindən əziyyət çəkənləri xilas etmək naminə qanvermə aksiyasında iştirak edirlər. Aksiya müəyyən edilmiş qaydaya əsasən hər il bir hərbi hissədə keçirilir.

Növbəti dəfə qanvermə aksiyası fevralın 28-də qoşunların Ali Hərbi Məktəbində baş tutub. Hərbi qulluqçularla yanaşı, AHM-də təhsil alan kursantlar da bu aksiyaya qoşulub. Bir vətəndaş kimi talessemiya xəstələrinə yardım etmələrini mənəvi borc hesab edən hərbi qulluqçularımız "Talassemiyasız həyat naminə" layihəsinin nə qədər vacib olduğunu anlayır və bu istiqamətdə lazımi miqdarda qan vermələrini fəxarətlə qarşılayırlar.

Unutmaq lazım deyil ki, qanverməyə bir saat ayrılan vaxt bir həyata bərabərdir.

**baş leytenant T.Əlizadə**

## ERMƏNİ TERROR TƏŞKİLATLARI...

***Müasir dövrdə bir sıra dövlətlər beynəlxalq birliklər tərəfindən terrorçu kimi tanınmasalar da onlar terror və işğalçılıq siyasətindən aktiv şəkildə istifadə edirlər. Heç şübhəsiz ki, Ermənistan Respublikası bu siyahıda ilk yerlərdən birini tutur. Dövlət səviyyəsində terroru dəstəkləyən Ermənistan hakimiyyəti bu gün də məkrli siyasətindən əl çəkmir.***

XIX əsrin ikinci yarısından başlayaraq ermənilər Türkiyənin Şərq əyalətlərində və Cənubi Qafqazın azərbaycanlılar yaşayan torpaqlarında "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək məqsədilə bir sıra komitələr, şovinist cəmiyyətlər və terror təşkilatlarının əsasını qoymuşlar.

İlk erməni terror cəmiyyəti 1860-cı ildə İstanbulda yaradılan "Xeyriyyə Cəmiyyəti" idi. Onun təşkilatçıları X.Şişmakyan və M.Beşikdaşıyan "Zeytun qırğınları"nın fəal iştirakçıları olmuşdular.

1869-1870-ci illərdə İstanbulda "Kilikiya" adlı cəmiyyət təşkil edildi. 1874-cü ildə X.Kerekçyan Qarsda "Azadlıq adlı" gizli təşkilat yaratdı.

1881-ci ildə Ərzurumda "Vətən müdafiəçiləri" təşkilatının əsası qoyuldu. Əsasən kəndliləri və sənətkarları özündə birləşdirən bu təşkilatın rəhbəri Xaçatur Qreqoryan idi. Təşkilatı genişləndirmək üçün İstanbulda, Qafqazda şöbələr açıldı.

1985-ci ildə Fransanın Marsel şəhərində yaradılmış "Aramenakan" partiyasının "Ermənistanın azad edilməsi haqqında təlim" adlanan və sual-cavab formasında yazılmış proqramında deyilirdi:

Sual - "Ermənistanı yadellilərdən kim azad etməlidir?" Cavab - "Vasitələr müxtəlifdir, şəraitdən asılı olaraq bəzən öz silahı ilə, bəzən pulla, bəzən isə xaricilərin köməyi ilə". Sual - "Azadlıq bayrağını və qılıncını kim qaldırmalıdır?" Cavab - "Bayrağı erməni "kişisi" qaldırmalıdır, qılıncı isə bütün erməni gəncləri, yeniyetmələr və 16 yaşından 45 yaşınadək kişilər".

1887-ci ildə İsveçrənin Cenevrə şəhərində Qafqazdan olan bir qrup erməni tələbələr tərəfindən (A.Nazerbekyan, M.Vartanyan, X.Ohanyan və b.) "Hinçak" ("Zəng") partiyasının əsası qoyuldu. Partiyanın ilkin məqsədi siyasi və milli cəhətdən müstəqil olan Türkiyə ərazisində Ermənistanın yaradılmasına nail olmaq idi.

Təbliğat, fitnəkarlıq, terror, təşkilatlanma - bu çağırışlar erməni ideoloqlarının məqsədə çatmaq üçün irəli sürdüyü əsas metodlarıdır.

Növbəti yaradılan daha təhlükəli və qatı millətçi partiya "Daşnaksütyun" oldu. Liderləri X.Mikaelyan, S.Zoryan, S.Zavaryan olan "Erməni Federativ" inqilab partiyası və yaxud "Daşnaksütyun"un 1892-ci ildə İsveçrənin Cenevrə şəhərində keçirilən ilk qurultayı ermənilərin silahlanması, təşkilatlanması, silahlı üsyan, dövlət idarələrinə zərbələr, dövlət adamlarına sui-qəsdlər yolu ilə müstəqil demokratik respublika yaradılmasını son məqsəd olaraq qərarlaşdırdı. Partiyanın rəsmi manifestində bəyan edilirdi ki, öz məqsədlərinə çatmaq üçün inqilabi qruplar yaradacaq və üsyanlara rəvac verəcəkdir. İnqilabçı qrupların yaradılmasını vacib sayan məqamlar rəsmi manifestdə çap olunmuşdu:




- *"döyüşən banda"lar yaratmaq;*
- *xalqın inqilab fəaliyyətini və ruhunu oyatmaq məqsədi ilə həm söz, həm də işdə bütün vasitələrdən istifadə etmək;*
- *xalqı silahlandırmaq üçün bütün vasitələrdən istifadə etmək;*
- *inqilabçı komitələr təşkil etmək və onların arasında sabit əlaqələr yaratmaq;*
- *döyüş görüntüsü yaratmaq və dövlət rəsmlərini, xəbərçiləri, sələmçiləri, satqınları və hər cür istismarçıları qorxuya salmaq;*
- *adamları və silah-sürsatı daşımaq üçün nəqliyyat əlaqəsi yaratmaq;*
- *dövlət müəssisələrini talamaq və alt-üst etmək.*

"Daşnaksütyun"un minimum məqsədi milli erməni dövləti yaratmaq, maksimum məqsədi isə dənizdən-dənizə: Adanadan-Trabzona və Bakıya qədər uzanan "Böyük Ermənistan" yaratmaq idi. Məqsədinə nail olmaq yolunu isə partiya terrorda görürdü.

"Daşnaksütyun"un "Qırmızı Xaç", "Özünü müdafiə Komitəsi", "Terrorçu fəaliyyət Komitəsi", "Vahimə təşkilatı" və s. adda xüsusi təyinatlı təşkilatları vardır.

Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində erməni terror təşkilatları fəaliyyət göstərməkdədir. Bunlar "ASALA" və "HAYDAD" təşkilatlarıdır. Dağlıq Qarabağ ərazisinin üç müxtəlif yerində - Xəlfəli (Şuşa), Kiş (Xocavənd) və Əsgəranda "ASALA"nın təlim düşərgələri təşkil olunub.

İşğal olunmuş ərazilərimizdə məxfi eksperimental laboratoriyalar yaradılır ki, "ERRİ-BAL" zəhərləyici maddələri də burada saxlanılır. Rəsmi Yerəvan Dağlıq Qarabağda və ətraf rayonlarda atom-elektrik stansiyasının radioaktiv tullantılarını basdırır, zərərli radioaktiv sənaye tullantılarını Araz çayına axıdır. Bu ərazilərdə mədəni-tarixi abidələrimiz də ermənilər tərəfindən məhv edilmişdir. Məsələn, Füzuli şəhərinin 17-ci kilometrliyindəki Quruçay dərəsində Tuğ çökəkliyində yerləşən Azıx və Tağlar mağaraları kimi dünya əhəmiyyətli abidələr dağıdılmışdır. Əldə olunan məlumatlara görə, hazırda Şuşa mağarası, Şuşa qala divarları, görkəmli Azərbaycan şairi M.P.Vaqifin məqbərəsi, Füzulidə Şah Abbas karvansarası dağıdılmışdır.

Təəssüflər olsun ki, dünya ictimaiyyəti və bir sıra beynəlxalq təşkilatlar hələ də erməni vandalizminə göz yummaqdadırlar.

Bütün bunlara baxmayaraq, son illərdə dövlətimiz tərəfindən həyata keçirilən uğurlu xarici siyasət nəticəsində erməni qəsbkarlarının məkrli siyasətinin əsas mahiyyəti ifşa olunmaqdadır və zaman gələcək erməni şovinistləri öz layiqli cəzasını alacaq. Azərbaycan dövlətinin beynəlxalq nüfuzu və rəşadətli ordusu bunu deməyə əsas verir. Ötən ilin aprel döyüşləri dövlətimizin gücünü, qüdrətini nümayiş etdirdiyi kimi, düşmənin də nəyə qadir olduğunu bir daha göstərdi...